# Azərbaycanda kənd təsərrüfatının inkişafı prioritet istiqamətdir

***Respublikamızda son illər ərzində kənd təsərrüfatının modernləşdirilməsi, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşılması nəticələrində mühüm uğurlar əldə edilib. Prezident İlham Əliyev tərəfindən aqrar islahatların müasir mərhələsi ilə bağlı qəbul olunan qərarlar, bu sahənin institusional, iqtisadi və texnoloji inkişaf mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində kompleks layihələrin icrası kənd təsərrüfatının keyfiyyətcə yeni inkişaf dövrünə keçməsini şərtləndirib. Bütün bu tədbirlərin nəticəsində isə yerli istehsal potensialı güclənib və ərzaq məhsullarının rəqabətqabiliyyətliliyi artıb, həmçinin ərzaq təhlükəsizliyinin dayanıqlığının təmin olunması və əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəlməsi gerçəkləşib.***

Azərbaycanın ərzaq təhlükəsizliyi sahəsindəki nailiyyətləri nüfuzlu beynəlxalq qurumların hesabatlarında da əksini tapır. Belə ki, Qlobal Ərzaq Təhlükəsizliyi İndeksi (The Global Food Security Index) üzrə hesabata əsasən, respublikamızın ümumi ərzaq təhlükəsizliyi indeksində ardıcıl olaraq yüksəlmə müşahidə olunur. Hazırda da ərzaq təhlükəsizliyinin dayanıqlılığının gücləndirilməsi üçün yeni institusional mexanizmlər yaradılır.

Ölkədə strateji əhəmiyyətli mallar üzrə daha effektiv təchizat zəncirinin formalaşdırılması, bu sahədə qabaqcıl tənzimləmə və idarəetmə təcrübəsinin tətbiqi, eləcə də daxili bazarın qısamüddətli mənfi təsirlərə davamlılığının artırılması üçün Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyi təsis edilib. Azərbaycan Prezidentinin 2022-ci il 19 iyul tarixli “Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında” Fərmanına əsasən isə ölkənin ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, habelə ərzaqlıq buğda istehsalının təşkili məqsədilə yeni mexanizmlər yaradılıb.

Respublikamızda bu məsələ ilə əlaqədar Prezident İlham Əliyevin 2001-ci il 2 mart tarixli sərəncamı ilə 2001-2010-cu illəri əhatə edən “Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyi Proqramı”, 2008-ci il 25 avqust tarixli sərəncamı ilə “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”, 2016-cı il 6 dekabr tarixli fərmanı ilə “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi” təsdiq edilib, həmçinin digər sənədlər qəbul olunub. Bunlardan əlavə və ən əsası isə ölkədə qida təhlükəsizliyinə nəzarət sistemini təkmilləşdirmək, sözügedən sahədə şəffaflığı artırmaq, pərakəndəliyi və təkrarlanmaları aradan qaldırmaq, habelə “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”ndə nəzərdə tutulan müvafiq tədbirlərin həyata keçirilməsini təmin etmək üçün dövlət başçısının 2017-ci il 10 fevral tarixli müvafiq fərmanı ilə Qida Təhlükəsizliyi Agentliyi yaradılıb.

Aqrar sektorda yeni sığorta sisteminin tətbiqi də kənd təsərrüfatının inkişafını daha da sürətləndirib. Belə ki, bu sahədə istehsal olunan məhsulların Aqrar Sığorta Fondu ilə özəl sığorta şirkətləri tərəfindən birgə sığortalanması investisiya risklərini azaldıb, fermerlərə dövlət dəstəyini gücləndirib, məşğulluğa müsbət təsir edib və sığorta bazarını genişləndirib.

Yeri gəlmişkən, respublikada ilk dəfə aqrar sığortanın genişmiqyaslı tətbiqi üçün hüquqi baza formalaşıb. Milli Məclis tərəfindən “Aqrar sığorta haqqında” Qanun qəbul olunub, Nazirlər Kabineti Aqrar Sığorta Fondunun Nizamnaməsini və “Aqrar sığorta predmetinin tərkibini” təsdiqləyib.

Bununla da Azərbaycanda aqrar sığorta mexanizmi Türkiyənin TARSİM modelinin təcrübəsi əsasında qurulmağa başlanıb. Xatırladaq ki, bu model dövlət-özəl sektor əməkdaşlığına əsaslanır.

Son illərdə kənd təsərrüfatında müasir texnologiyaların tətbiqi ilə məhsuldarlıq artıb, dövlətin stimullaşdırıcı dəstəyi ilə bu sahənin qlobal dəyər zəncirinə dayanıqlı inteqrasiyası təmin olunub. Hökumət aqrar sektor, sənaye və xidmət sahələrinin inkişafını dəstəkləyən infrastrukturun yaradılmasında fəal iştirak edib. Bütün bunlarla bərabər, müxtəlif aqroparklar yaradılıb, istehsal olunan məhsul və xidmətlərin xarici bazarlara ixracı stimullaşdırılıb. Burada onu da qeyd edək ki, kənd təsərrüfatı məhsullarının ixracı üzrə prosedurların sadələşdirilməsi, ixracyönümlü aqrar istehsal mallarına gömrük və vergi güzəştlərinin tətbiqinin sadələşdirilməsi də mühüm rol oynayıb.



Prezident İlham Əliyevin bu il avqustun 12-də Ağsu rayonunda “Ağsu Aqropark” Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyəti ilə tanışlığı da dövlətimizin başçısının bu sahənin inkişafına mühüm önəm verdiyini göstərir. Vergi güzəştləri, subsidiya və güzəştli kreditlərin verilməsi, lizinq əsasında ayrılan texnika və avadanlıqlar sayəsində qısa müddətdə aqrar sektorda yüksək nəticələr əldə edilməsi də məhz bu diqqətin nəticəsidir.

Yeri gəlmişkən, son illərdə milli iqtisadiyyatımızın dayanıqlı inkişafının təmin olunması məqsədilə həyata keçirilən tədbirlər çərçivəsində elmi yanaşma, qabaqcıl texnologiya və təcrübənin tətbiqi ilə yaradılan aqroparklar ölkəmizdə ərzaq təhlükəsizliyinin möhkəmlənməsinə, idxaldan asılılığın azaldılmasına, regionların tarazlı inkişafının və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsinə, həmçinin emal sənayesinin yerli xammalla təminatının yaxşılaşdırılmasına mühüm töhfələr verir. Aqroparkların yaradılması aqrar sahədə qeyri-neft sektorunun inkişafını sürətləndirməklə bərabər, ixracyönümlü məhsulların sayının artmasında və ölkənin ixrac potensialının güclənməsində əhəmiyyətli rol oynayır.

Aqroparklar torpaq sahələrindən səmərəli istifadə, məhsuldarlığın yüksəldilməsi, yeni istehsal və emal sahələrinin yaradılması, müasir suvarma sistemlərinin tətbiqi üçün innovativ və əlverişli mexanizmdir. Bu baxımdan həmin müəssisələrin ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsində rolu getdikcə gücləndirilir, sahibkarlığın inkişafı, kiçik, orta və iri təsərrüfatların qarşılıqlı faydalı əməkdaşlığı üçün əlverişli platformaya çevrilməsinə xüsusi önəm verilir.

Xatırladaq ki, son illərdə respublikamızın 32 rayonu üzrə 239,3 min hektar ərazidə ümumi layihə dəyəri 2,4 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatı yaradılıb. Bunlardan 34-ü bitkiçilik, 14-ü bitkiçilik və heyvandarlıq, 1-i heyvandarlıq fəaliyyəti, 2-si isə çeşidləmə-qablaşdırma, emal və logistika sahələri üzrə ixtisaslaşıb.

İndiyədək aqroparklara 1,3 milyard manat özəl investisiya qoyulub. Bununla yanaşı, dövlət tərəfindən aqroparklara müvafiq dəstək tədbirləri görülüb. Belə ki, investisiya təşviqi sənədi almış 27 aqroparkdan 26-sına texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə 43,7 milyon manat dəyərində güzəşt tətbiq olunub, 25 aqroparkın yaradılması və ya fəaliyyətinin genişləndirilməsi üçün 184,2 milyon manat güzəştli kredit verilib.

Aqroparklar ötən müddətdə məşğulluq səviyyəsinin artırılmasında da mühüm rol oynayıb. Hazırda aqroparklarda ümumilikdə 5 minə yaxın işçi daimi, 6 mindən çox işçi isə mövsümi işlə təmin olunub. Gələcəkdə əlavə 4672 iş yerinin yaradılması da nəzərdə tutulub.

Əlbəttə, bu göstəricilərin əldə olunması, ilk növbədə, ölkə Prezidentinin sözügedən sahəyə diqqəti və dövlət tərəfindən göstərilən dəstəklə bağlıdır. Belə ki, kənd təsərrüfatının subsidiyalaşdırılması və vergilərdən azad olunması, texnika və gübrələrin güzəştli şərtlərlə verilməsi, lizinq xidmətlərinin təşkili, investisiyaların və ixracın təşviqi, lisenziyalaşdırmanın təkmilləşdirilməsi, yoxlamaların dayandırılması müddətinin uzadılması bunun bariz ifadəsidir.

Regionların inkişafını özündə ehtiva edən dövlət proqramlarının vaxtında və yüksək səviyyədə icra olunması da Azərbaycanın ümumi iqtisadi gücünü artırmaqla yanaşı, aqrar sahədə mövcud istehsal müəssisələrinin fəaliyyətinin güclənməsinə, yeni istehsal sahələrinin yaradılmasına, yerli resursların istifadənin səmərəsinin artırılmasına, kənd təsərrüfatında islahatların sürətlənməsinə yol açıb.

Aqrar sahədə həyata keçirilən islahatlar və görülən tədbirlər barədə danışarkən, qeyd edək ki, lizinq fəaliyyətinin genişləndirilməsi nəticəsində bazarda artıq azad və rəqabətli şərait formalaşıb. Belə ki, texnikaya tətbiq olunan güzəştlər bütün özəl şirkətlərə aid edilib. Ötən il fermerlərə satılan 4117 texnikanın təxminən 3 mini özəl şirkətlər tərəfindən fermerlərə satılıb. O cümlədən, Kənd Təsərrüfatı Nazirliyi öz fəaliyyətini fermerlərə yaxınlıq prinsipi əsasında qurub və bütün rayonlarda dövlət aqrar inkişaf mərkəzləri artıq formalaşdırılıb. Bu mərkəzlərdə fermerlərə “Bir pəncərə” prinsipinə uyğun 60-a yaxın xidmətin göstərilməsinə başlanılıb.

Kənd Təsərrüfatı naziri İnam Kərimovun gərgin əməyi nəticəsində son vaxtlar bu sahədə əsaslı nailiyyətlər əldə olunub. Bütün sahələr – taxılçılıq, tütünçülük, heyvandarlıq, arıçılıq geniş inkişaf edib.

Ümumiyyətlə, əldə edilən bütün bu uğurlar ölkə iqtisadiyyatının dinamik inkişafı, islahatların ardıcıl xarakter daşıması ilə bağlı olub. Hazırda iqtisadiyyatının dayanıqlığının şaxələndirilməsi və rəqabət qabiliyyətinin təmin



edilməsi qarşıya iqtisadi islahatlar üzrə əsas vəzifə kimi qoyulub. Bu məqsədlə sahibkarlıq fəaliyyətinin genişləndirilməsi, investisiya və biznes mühitinin daha da yaxşılaşdırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, institusional islahatların aparılması, dövlət tərəfindən sahibkarlara hərtərəfli dəstək verilməsi istiqamətlərində bir sıra mühüm qərarlar qəbul edilib. Bütün bunların sayəsində Azərbaycan son illər dünyanın ən sürətlə və dayanıqlı inkişaf edən ölkəsinə çevrilib.

Sonda bir məsələni də qeyd etmək istərdim. Vətən müharibəsində əldə edilən tarixi zəfərimizdən sonra işğaldan azad olunmuş torpaqlarda kənd təsərrüfatının bərpası da diqqət mərkəzində saxlanılıb. Bunun üçün geniş, əhatəli tədbirlər planı hazırlanıb. İlk növbədə, həmin sahələrin kənd təsərrüfatına yararlı hala gətirilməsi üçün meliorasiya, irriqasiya sistemlərinin quraşdırılması nəzərdə tutulub. Eyni zamanda, bu torpaqların təyinatı üzrə uçotunun aparılması, yeni əkin, örüş, biçənək yerlərinin müəyyənləşdirilməsi qarşıya mühüm vəzifə kimi qoyulub.

Ümumiyyətlə, insanların həmin torpaqlarda əkin-biçinlə məşğul olmaları üçün təchizat xidməti fəaliyyət göstərəcək. Kənd Təsərrüfatı Nazirliyinin aqroservis xidməti vasitəsilə burada kənd təsərrüfatı texnikası ilə təminat sistemi yaradılacaq, eyni zamanda, özəl sektorun dəstəklənməsi, təşviqi mexanizmləri hesabına gübrə, toxum, pestisidlərlə təchizat sistemləri təşkil ediləcək. Paralel olaraq, heyvandarlıq infrastrukturun qurulmasına da başlanılacaq.

İşğaldan azad edilən rayonlarda infrastruktur, o cümlədən, fermalar dağıdılıb. Buna görə də, ilk növbədə, burada fermaların qurulması, həmin fermalarda iribuynuzlu və xırdabuynuzlu heyvanlarla təminatı üçün zəruri dəstək tədbirlərinin göstərilməsi də nəzərdə tutulub.

Fikrimcə, regionun potensialı nəzərə alınaraq həmin ərazilərdə arıçılıq təsərrüfatlarının, həmçinin bölgənin spesifikasına uyğun olaraq, emal müəssisələrinin yaradılması da zəruridir. Xüsusilə süd emalı və üzüm emalı şəbəkələrinin qurulmasına ehtiyac var.

Hesablamalara əsasən, düşməndən təmizlənən 155 min hektarlıq əkin dövriyyəsi ümumi kənd təsərrüfatı dövriyyəsinə cəlb olunacaq. Proqnozlaşdırmalar göstərir ki, orada 400 min başlıq iri buynuzlu və 1,5 milyon başlıq isə xırda buynuzlu heyvan sürüsü formalaşdırılacaq. Bu, o deməkdir ki, həm heyvandarlıq, həm də bitkiçilik üzrə indiki kənd təsərrüfatının həcminin 8 faizi nisbətində orada ümumi məhsul istehsalı təşkil olunacaq.

Həmin ərazilər bərpa olunandan sonra əkin dövriyyəsi ümumi ölkənin əkin dövriyyəsinin 7-8 faizi qədər olacaq, amma iri və xırdabuynuzlu heyvan sürüsünün ümumi ölkə göstəricisinə nisbəti 15-18 faiz olacaq. Bu da onu göstərir ki, region daha çox heyvandarlıq zonasıdır. Konkret olaraq, burada 45 min ton ət, 200 min tondan çox süd istehsalı proqnozlaşdırılır. Nəzərə alsaq ki, bizim iri və xırda buynuzlu heyvan əti idxalımız təqribən 35 min tondur, bu bizim heyvandarlıqla bağlı çox ciddi idxal əvəzetməmizə səbəb olacaq.

Onu da qeyd edim ki, Kəlbəcər, Laçın və Zəngilanda heyvandarlığın çox böyük perspektivləri var. Artıq ikinci ildir ki, qoyun sürüləri həmin rayonların yaylaqlarına çıxarılır. Kəlbəcər və Laçın rayonlarında isə yüzlərlə arıçı tərəfindən qurulan təsərrüfatlardan bol məhsul götürülür.

Sonda vurğulamaq istəyirəm ki, yüksək ixtisaslı kənd təsərrüfatı mütəxəssislərinin hazırlanmasına da son illər xüsusi diqqət yetirilir. Azərbaycan Dövlət Aqrar Universiteti uzun illərdir ki, bu sahədə səmərəli fəaliyyət göstərir. Bir neçə gün bundan əvvəl isə universitetin rəhbərliyinin dəyişməsi də bu sahədə daha yüksək nəticələr əldə edilməsi məqsədi daşıyır.

***Qənbər ABDULLAYEV,***
***Azərbaycan Dövlət Aqrar Universitetinin zoomühəndislik fakültəsinin dekanı, professor***